# THE ECOLOGICAL PERSPECTIVE OF BIOETHICS: VAN RENSSELAER POTTER'S CONCEPT OF BIOETHICS

**Asim Ashurov**[1]

**UDC:** 17:61:502/504
**LBC:** 87.7:28:51.1
**HoS:** 61
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.59-71

**Keywords:**

Bioethics,
Potter,
Global bioethics,
Medical bioethics,
Environment,
Holism,
Biology

## ABSTRACT

This article explores the history of the concept of bioethics and outlines two different trajectories of its development following its emergence. The term "bioethics" was introduced by American biochemist Van Rensselaer Potter as an interdisciplinary field that combines biological knowledge and human values to ensure the long-term sustainability of humanity and the biosphere. However, in subsequent years — particularly due to the activities of academic institutions such as the Kennedy Institute and the Hastings Center — bioethics evolved primarily within a biomedical context, with issues such as human life, patient rights, and clinical decision-making taking center stage. The article investigates the reasons why medical bioethics gained dominance in the academic sphere. It also sheds light on Potter's later concept of "global bioethics," which extends beyond human health and is seen as an ethical approach to the planet's ecological future. The article emphasizes the necessity of revisiting this original, broader conception of bioethics in modern contexts and proposes enriching ethical thinking by moving beyond a narrow medical framework to include ecological consciousness.

[1] Doctoral student at the Department of Ethics, Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences; Baku, Azerbaijan
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
**To cite this article:** Ashurov, A. [2025]. The Ecological Perspective of Bioethics: Van Rensselaer Potter's Concept of Bioethics. *History of Science journal*, *6*(2), pp.59-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.59-71

***Article history:***
*Received: 07.03.2025*
*Accepted: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# BİOETİKANIN EKOLOJİ PERSPEKTİVİ: VAN RENSSELAER POTTERİN BİOETİKA KONSEPSİYASI

**Asim Aşurov**[1]

**UOT:** 17:61:502/504
**KBT:** 87.7:28:51.1
**HoS:** 61
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.59-71

**Açar sözlər:**

Bioetika,
Potter,
Qlobal bioetika,
Tibbi bioetika,
Ətraf mühit,
Holizm,
Biologiya

## ANNOTASİYA

Bu məqalədə bioetika anlayışının tarixinə nəzər salınır və onun ortaya çıxmasından sonrakı mərhələdə iki fərqli trayektoriyada inkişaf prosesi göstərilir. Bioetika terminini amerikalı biokimyaçı Van Rensselaer Potter bəşəriyyətin və biosferin uzunmüddətli davamlılığını təmin etmək üçün bioloji bilikləri və insan dəyərlərini birləşdirən fənlərarası bir sahə kimi təqdim etmişdir. Lakin sonrakı illərdə xüsusilə Kennedi İnstitutu və Hasting mərkəzi kimi akademik müəssisələrin fəaliyyəti nəticəsində bioetika daha çox biotibbi kontekstdə inkişaf etmiş, insan həyatı, pasiyent hüquqları və klinik qərarvermə kimi məsələlər ön plana çıxmışdır. Məqalədə tibbi bioetikanın akademik sferada niyə dominantlıq qazanmasının səbəbləri araşdırılır. Həmçinin, Potterin sonrakı dövrlərdə ortaya qoyduğu "qlobal bioetika" anlayışı işıqlandırılır; burada bioetika yalnız insan sağlamlığını əhatə etmir,o, həmdə planetin ekoloji gələcəyi üçün etik yanaşma kimi qəbul edilir. Məqalə, bioetikanın bu ilkin geniş konsepsiyasının müasir kontekstlərdə yenidən aktuallaşdırılmasının zəruriliyini vurğulayır və etik düşüncənin dar tibbi çərçivədən çıxarılaraq ekoloji düşüncə ilə zənginləşdirilməsini təklif edir.

[1] Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu, Etika şöbəsi, Doktorant; Bakı, Azərbaycan
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
**Məqaləyə istinad:** Aşurov, A. [2025]. Bioetikanın Ekoloji Perspektivi: Van Rensselaer Potterin Bioetika Konsepsiyası. *History of Science jurnalı*, 6(2), səh.59-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.59-71

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 07.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 09.04.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ЭКОЛОГИЧЕСКАЯ ПЕРСПЕКТИВА БИОЭТИКИ: КОНЦЕПЦИЯ БИОЭТИКИ ВАНА РАНСЕЛЛЕРА ПОТТЕРА

**Асим Ашуров**[1]

**УДК:** 17:61:502/504
**ББК:** 87.7:28:51.1
**HoS:** 61
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.59-71

**Ключевые слова:**

Биоэтика,
Поттер,
Глобальная биоэтика,
Медицинская биоэтика,
Окружающая среда,
Холизм,
Биология

## АННОТАЦИЯ

В данной статье рассматривается история понятия биоэтики и показаны два различных направления её развития после появления. Термин «биоэтика» был введён американским биохимиком Ван Рансселером Поттером как междисциплинарная область, объединяющая биологические знания и человеческие ценности с целью обеспечения долгосрочной устойчивости человечества и биосферы. Однако в последующие годы, особенно под влиянием деятельности таких академических учреждений, как Институт Кеннеди и Центр Хастингса, биоэтика начала развиваться преимущественно в биомедицинском контексте, сосредотачиваясь на таких вопросах, как жизнь человека, права пациентов и принятие клинических решений. В статье исследуются причины, по которым медицинская биоэтика заняла доминирующее положение в академической сфере. Также освещается концепция «глобальной биоэтики», разработанная Поттером в более поздние периоды, согласно которой биоэтика охватывает не только здоровье человека, но и рассматривается как этический подход к экологическому будущему планеты. В статье подчёркивается необходимость актуализации этого изначально широкого концепта биоэтики в современных контекстах и предлагается обогащение этического мышления за пределами узко медицинских рамок с включением экологического сознания.

[1] Аспирант, отдел Этики, Институт философии и социологии, Национальная академия наук Азербайджана; Баку, Азербайджан
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459
**Цитировать статью:** Ашуров, А. [2025]. Экологическая перспектива биоэтики: концепция биоэтики Вана Рanселлера Поттера. *Журнал History of Science*, 6(2), с.59-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.59-71

***История статьи:***
*Статья поступила в редакцию: 07.03.2025*
*Отправлена на доработку: 09.04.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

XX əsrə aid bir fenomen olan bioetika multidisiplinar bir sahə olub tibb, biologiya, ekologiya, fəlsəfə və digər sahələrin kəsişməsində yaranaraq insan, cəmiyyət və təbiət arasında etik münasibətləri tənzimləməyi özünə hədəf müəyyənləşdirmişdir. Sözün etimologiyasına diqqət etsək bu termin qədim yunan dilindəki “bios” (həyat) və “ethos” (etik norma və davranış) sözlərinin birləşməsindən ortaya çıxmışdır. Bir çox yazılarda bioetikasözünün ilk dəfə istifadə edilməsi Van Ranssear Potterin adı ilə bağlı olsada bu termini ilk dəfə alman teoloq Fritz Jahr istifadə etmişdir. “Fritz Jahr bioetikanı bir elmi sahə, normativ prinsip və əxlaqi dəyər kimi formalaşdırır və bu yanaşmanı Kant etikası ilə fəal dialoqşəklində inkişaf etdirir. O, Kantın formal kateqorik imperativini daha əhatəli və məzmuna əsaslanan bir yanaşmaya – bioetik imperativə – doğru genişləndirir. Bioetik imperativ, həyat elmləri sahəsində və bütün canlı varlıqlara qarşı etik və mədəni münasibətlərin, eləcə dəinsanın mənəvi məsuliyyətinin əsas istiqamətverici prinsipi kimi çıxış edir” [Sass, 2009, s.188]. Lakin Fritz Jahrın bioetik konsepsiyası uzun müddət akademik dairələrdə tanınmamıştır deyə bioetikanın ortaya çıxması məhz Potterin adı ilə əlaqələndirilmişdir.

Potter bioetika ilə bağlı fikirlərini əsaslandırarkən adlarını qeyd etdiyi filosof və mütəfəkkirlərin arasında Fritz Jahrın adını qeyd etmir. Yəni bu nöqteyi-nəzərdən baxdıqdaqeyd etmək olar ki, Jahrdan 44 il sonra onun təlimindən xəbəri olmadan Van Ransslaer Potteröz bioetik konsepsiyasını irəli sürür. Buna baxmayaraq hər iki mütəfəkkirin bioetika konsepsiyaları arasında müəyyən oxşarlıqlar mövcuddur. Ancaq bu oxşarlıqlar çox olduğuüçün düşünürəm ki, bu məsələ başqa bir yazının müzakirə obyekti ola bilər. Potterin bioetika fenomenini ilk ortaya atdığı onun 1970-ci ildə nəşr etdirdiyi “Bioethics:science of survival” adlı məqaləsidir. Bundan bir il sonra 1971-ci ildə o, bu məqaləsini dədaxil etdiyi “Bioethics: bridge to the future” kitabını yazır. O, bu yazısının ön sözündə qeydedir ki “bu kitabın məqsədi yeni bir disiplin, bioetika disiplininin formalaşmasını təşviqetməklə insan növünün gələcəyinə töhvə verməkdir” [Potter, 1971, s.VII]. Burada bioetikanınmənşəyi ilə bağlı fikir ayrılığını qeyd etmək vacibdir. “Bioetika anlayışının mənşəyi barədə elmi ədəbiyyatda adətən iki əsas başlanğıc nöqtəsi qeyd olunur. Birincisi, Van Rensselaer Potterin 1970-ci ildə nəşr olunan “Bioethics: The Science of Survival” adlı məqaləsində bioetikanı ətraf mühitə və etik dəyərlərə qarşı məsuliyyətli yanaşmanı təşviq edən qlobal bir hərəkat kimi təqdim etməsidir. İkincisi isə Daniel Callahanın “Bioethics as a Discipline” adlı məqaləsində bioetikanın müstəqil bir akademik disiplin kimi formalaşdırılması və əxlaq fəlsəfəsinə əsaslanaraq tibbi-etik dilemmlərin araşdırılması üçün institutun yaradılması zərurətini müdafiə etməsidir. Bu yanaşma xüsusilə Shriver və Hellegers arasındakı müzakirəyə əsaslanır və daha çox tibbi bioetikanın inkişafını simvolizə edir” [Gordon, 2012]. Bioetikanın mənşəyinin ikililiyini başqa sözlə izah edək. Deməli, Potterin bioetika anlayışını elmi ədəbiyyata bəxş etdiyi vaxtla oxşar vaxtlarda Callahan tərəfindən Hasting mərkəzi və Georgetown universitetində Kennedi institutu təsis edilmişdir. Bioetikanın institutlaşmasında və akademik sahəyə çevrilməsində böyük rol oynayan bu mərkəzlər bioetikaya daha çox tibb və biotexnologiyalarla bağlı etik məsələlər çərçivəsində baxmışlar. Digər tərəfdən, Potterin bioetikası yalnız tibbi və səhiyyə məsələlərini deyil, ekoloji məsələləri də diqqət mərkəzində saxlamağı hədəfləyirdi. Onun bioetik konsepsiyası insanın yalnız öz maraqlarını diqqət mərkəzində saxlayaraq qərar verməsini deyil, həm təbiətə və digər canlı formalarına etik münasibət bəsləməyi, həm də planetin uzunmüddətli rifahını nəzərə alaraq etik dilemmalara cavab verməyi təşviq edirdi. Məhz bu səbəbdən bioetika tədqiqatçıları arasında fikir ayrılığı yaranmış onların çox hissəsi bioetikanı Kennedi institutunun təbliğ etdiyi kimi tibbi əxlaqi problemlərin araşdırma sahəsi olaraq görmüş, ancaq müəyyən sayda tədqiqatçılarda olmuşlar ki, onlar Potterin bioetikasını davam etdirməklə bərabər inkişaf etdirmişlər. Bir çox ölkələrdə, o cümlədən də Azərbaycanda

bioetika tibbi və klinik məsələlərdə etik qərarların qəbul edilməsi sahəsi kimi anlaşılmış, onun ekoloji perspektivi çox da diqqətə alınmamışdır. Ancaq fikrimizcə, Potterin təqdim etdiyi geniş, gələcək və ekoloji yönümlü bioetikası XXI əsrin dünyasında xüsusilə aktualdır. Antroposen adlanan bu epoxada insan öz sahib olduğu elm və texnologiya sayəsində dünyanın iqlimini və ekosistemləri dəyişəbiləcək bir qüvvəyə çevrilib. Artıq insan fəaliyyəti ətraf mühitin çirklənməsi, torpağın deqredasiyası, resursların qeyri-səmərəli istifadəsi, okean sularının çirklənməsi, inkişaf etmiş biotexnologiyanın ortaya qoyduğu qlobal risklər və bir çox başqa problemlərə gətirib çıxarmışdır. Potterin bioetika anlayışı çağımızın bu problemlərinə cavab verə bilən və gələcəyə istiqamətlənmiş bir etik yanaşma olaraq daha çox qabardılmalıdır. Biz bu yazımızda bioetikanın tarixinə nəzər salmağa, Potterin bioetikasının əsaslarını araşdırmağa və onu tibbi bioetik konsepsiyadan fərqləndirən məqamları göstərməyə çalışacağıq. Xüsusilə, yazıda bioetikanın ekoloji aspektləri daha dərindən təhlil ediləcək və bu sahənin niyə bu qədər əhəmiyyətli olduğu vurğulanacaq. Eyni zamanda, bioetiklərin niyə daha çox tibbi dilemmalar üzərində cəmləşdiyi və bu tendensiyanın arxasında dayanan səbəblər araşdırılacaqdır. Qeyd edək ki, bu araşdırma Azərbaycandakı ekoloji bioetika sahəsinin vəziyyətinə birbaşa toxunmasa da, bu mövzuya dair tədqiqatlara əlavə olaraq, nəzəri bazanın genişlənməsinə töhvə verməyi hədəfləyir.

### *2.Potterin bioetikası*

Girişdə qeyd edildiyi kimi müəyyən səbəblərdən bir çox elmi ədəbiyyatlarda bioetika anlayışının meydana çıxması Van Ransslaer Potterin adı ilə bağlıdır. Potterin bioetika termini ilk dəfə istifadə etdiyi yazısı onun 1970-ci ildə dərc etdirdiyi "Bioethics, the science of survival" adlı məqaləsidir. Bundan bir il sonra 1971-ci ildə onun "Bioethics: bridge to the future" kitabı nəşr olundu. Əvvəlcə qeyd edilməlidir ki, Potter kitabın başlanğıcında amerikalı filosof Aldo Leopoldun kitabından bir parça təqdim edir və bu kitabı ona həsr etdiyi qeyd edir. Burada Aldo Leopoldun kim olması ilə bağlı sual ortaya çıxır. Biz fikirlərimizin tamamilə başa düşülən olması üçün bu sualı cavablandırmaq məcburiyyətindəyik. Aldo Leopold amerikalı yazıçı, filosof, təbiətşünas, ekoloq alimdir. "Ətraf mühit etikası sahəsində çalışan əksər alimlər təbiət etikası ilə bağlı əsas mənbələrdən biri sayılan Land Ethic adlı yazıya istinad edirlər. Bu yazı, Şimali Amerikalı meşə mühəndisi Aldo Leopold tərəfindən 1949-cu ildə nəşr olunmuş A Sand County Almanac adlı kitabda yer alır" [Lecaros, 2013, s.203]. Aldo Leopold bu əsərində qeyd edir ki, "Ilk etik sistemlər fərdləri əhatə edirdi. Daha sonra formalaşan yanaşmalar fərdlə cəmiyyət arasındakı münasibətlərlə məşğul olurdu. Ancaq hələ də insanın torpaq və onun üzərində yaşayan heyvan və bitkilərlə münasibətlərinə dair etika yoxdur" [Leopold, 1970, s.202-203]. Leopold adını çəkdiyimiz kitabın son bölümündə "Land ethics" (torpaq etikası) anlayışını ortaya qoyur. Filosof bu anlayış altında yalnız torpağı nəzərdə tutmur, o, həmdə insanları, su hövzələri, bitki və heyvanlar aləmini də torpağa aid bir tam orqanizma kimi nəzərdən keçirir. Potter də öz bioetik konsepsiyasını əsasən Leopoldun fikirlərinin üzərində inşa edir. "Onun da bioetikası heyvan və bitkiləri, bütün canlı varlıqları, hətta təbiətin özünü də əhatə edir. Bu nöqteyi-nəzərdən, onun narahatçılığı ətraf mühit idi" [Kalokairinou, 2016, s.149]. Fikrimizcə, bioetikanın çıxış nöqtəsinə nəzər saldıqda, aydın olur ki, başlanğıcda ekoloji problemlər bu sahənin əsas qaynaqları olmuşdur. Sadəcə, sonradan tibbi bioetika üzrə tədqiqatlar üstünlük qazanmışdır. Bu məsələnin səbəbləri məqalənin sonrakı hissəsində ətraflı araşdırılacaq. Potter, "Bioethics, the bridge to the future" adlı kitabının önsözündə bildirir ki, "insan dəyərləri bioloji faktlardan ayrıla bilməz. Biz torpaq etikasına, vəhşi həyat etikasına, əhali etikasına, istehlak etikasına, şəhər etikasına, milli etikaya və başqalarına ehtiyacımız var [Potter, 1971, s.VII]. Potter XX əsrdə ortaya çıxan ekoloji problemlərin, texnoloji inkişafın özü ilə bərabər gətirdiyi qlobal çətinliklərin və əxlaqi dilemmaların həlli yolunu bioloji elmlərlə etikanın birgə səyləri nəticəsində ortadan qaldırmağın

mümkünlüyünə inanırdı. Filosof insan fəaliyyətinin ətraf mühitə və insanlığın gələcəyinə olan mənfi təsirlərindən və onların potensial nəticələrindən dərin narahatçılıq hissi keçirirdi. Məhz onun fikrincə də bioetika elm və etikanı inteqrasiya etməli və dediyimiz problemlərin həllində əsas rol oynayamalı disiplin olacaqdır. Potterə görə "insanlıq, təcili olaraq insanın həyatda qalması və həyat keyfiyyətinin artırılması üçün "bilgini istifadə etmə bilgisini" öyrədəcək hikmətə ehtiyac duyur" [Potter, 1971, s.1]. Potter bioetikanı "sağ qalma elmi" adlandırırdı. Filosof bioloji bilikləri və insan dəyərlərini bu disiplin üçün ən mühüm iki tərkib hissə kimi qeyd edirdi. "Sağ qalma elmi yalnız elm olmaqdan daha artıq olmalıdır və buna görə də mən 'bioetika' anlayışını ortaya atdım ki, yeni və təcili şəkildə ehtiyac duyulan müdrikliyə çatmaq üçün iki ən vacib elementi vurğulayım: bioloji bilik və insani dəyərlər" [Potter, 1971, s.2]. O, insan növünün öz varlığını və planetin davamlılığını təmin etməsi üçün elmi biliklərə etik dəyərlərin birləməsinin vacibliyini vurğulayırdı. Potterin bioetikasının əsas xarakteristakalarından biri də onun gələcəyə yönələn bir sahə olması idi. O, bioetikanı indi və gələcək arasında körpü adlandırırdı. Çünki bu sahə yalnız onun dövrü üçün deyil bəşəriyyətin gələcəyi üçün də önəmli idi. Potter, gələcək nəsillərin rifahını düşünməyi də bioetika üçün əsas məqsədlərdən biri saymışdı. Potter yuxarıda adını çəkdiyimiz kitabında bioetikanı "yeni holistik biologiya" kimi adlandırır. "Holizm, bir sistemdəki bütün elementlərin – fiziki, bioloji, sosial və ya siyasi – bir-biri ilə əlaqəli olduğunu və buna görə də bütöv olaraq qiymətləndirilməli olduğunu ifadə edən anlayışdır. (yunan dilindən "olos": - bütov) [Ralston, 2015, s.1]. Filosofa görə insan təbiətin bir hissəsidir, ona görə də insan fəaliyyəti öz gələcəyini təmin etmək üçün ekosistemlərin və bioloji müxtəlifliyin qorunmasında maraqlı olmalıdır. "Bioetika, ekologiya elmini nəzərə alan və insanları ətraf mühitlə münasibətdə dəyərləndirən yeni bir etika anlayışını təmsil edir" [Pessini, 2018, s.7].

Məqalənin giriş hissənində ifadə olunduğu kimi, bioetikanın mənşəyində bir ikianlamlılıq mövcuddur və bu da zaman-zaman onun anlaşılmasında çətinliklər yaradır. Bu anlaşılmazlığı ortadan qaldırmaq üçün bioetikanın biotibbi etikayla eyniləşməsinin səbəblərini ilk olaraq ona tarixi perspektivdən yanaşaraq göstərməyə çalışılacaqdır. Belə ki, Ranselaer Potterdən başqa bir qrup akademik insanlar onun bioetika ilə bağlı yazdığı ilk yazıdan qısa müddət sonra bioetika sözünü istifadə etməyə başladılar. 1971-ci ildə Corctaun universitetinin daxilində yaradılan Kennedy institutunu yaradıcısı Andre Hellegers bioetika və insan reproduksiyası üçün Kennedy mərkəzi adlandırdı. "Kennedy universitetinin 1972-ci ildə planlamağa başladığı bioetika ensklopediyasında bioetikanı tibb və biologiya elmlərinin etik ölçülərinin tədqiqi kimi müəyyənləşdirdi" [Jecker, Jonsen, & Pearlman, 2012, s.3]. Dan Callahanın 1973-cü ildə nəşr etdirdiyi "Bioethics as a discipline" məqaləsindən sonra ənənəvi tibbi etikadan fərqli tibb sahəsində yeni texnoloji inkişafları və bu inkişaflarla bağlı ortaya çıxan etik problemlərin araşdırılması üçün yeni biotibbi etikanın əsası qoyuldu. Son dərəcə təsirli olan bu məqaləsində "o, təklif edirdi ki,bu yeni sahə həm fəlsəfi analizin ənənəvi metodlarını həm də insan duyğularına və tibbin tətbiq olunduğu sosial və siyasi təsirlərə həssaslıqdan istifadə edərək özünü unikal bir disiplinə çevirəcək" [Jecker, Jonsen, & Pearlman, 2012, s.3]. Qeyd olunan məsələlərdən sonra bioetika sahəsi artıq daha çox tibb və elm sahəsində baş verən yenilikləri, biotexnoloji cihazları, evtanaziya, orqan transplantasiyası, genetik mühəndislik, həkim-pasient münasibətləri kimi etik mövzulara daha çox diqqət ayırmağa başladı. Bioetika interdisiplinar bir sahə olduğu üçün fəlsəfə, biologiya, tibb, hüquq və digər sahələrdən olan mütəxəssislər bioetikanın mövzuları haqqında qızğın müzakirələrə başladılar. Əsrimizdə isə texnologiyanın inanılmaz inkişafı, süni intellektin həyatımızda yeni və son dərəcə önəmli bir fenomenə çevrilməsi biotibbi etikanın mövzularını və onun qarşımıza qoyduğu əxlaqi dilemmaları daha da aktual edir.

Van Ransselaer Potter bioetika ilə bağlı yazdığı ikinci kitabı olan "Global bioethics: building on the Leopold legacy" kitabında yazır ki, "Tibbi seçimlərə diqqət yetirməklə,

bioetikanın insan dəyərləri ilə ekoloji faktları birləşdirməsi üçün təklif edildiyi faktı çoxları tərəfindən unuduldu" [Potter, 1988, s.1] Həqiqətəndə bioetikanın ortaya çıxdığı dövrdən Potterin ikinci kitabını yazdığı dövrə qədər artıq bu sahədə yazılan yazıların çoxu biotibbi etikanın mövzuları ilə əlaqədar olmuşdur. Başqa sözlə desək, bioetika biotibbi etikaya çevrilmişdi. Danışdığımız dövrdə bioetika artıq ətraf mühitlə bağlı etik problemləri öz tədqiqat mövzusu etmirdi. Potterin də narahatçılığı məhz bu yöndə idi. O, bu barədə narahatçılığını aradan qaldırmaq üçün bildirirdi ki, "artıq ekologiya elmini və qlobal miqyasda cəmiyyətin daha böyük problemlərini nəzərə almadan tibbi variantları araşdıra bilməyəcəyimizi başa düşmək vaxtı gəldi" [Potter, 1988, s.2]. Potter bu kitabında həm biotibbi etikanı həm də ekoloji etikanı əhatə edəcək bir anlayış olan "qlobal bioetika" anlayışını ortaya atdı. Potterin dostu və onunla birgə bioetik tədqiqatlarda iştirak etmiş akademik Peter J. Whitehouse yazır ki, Potter karyerası boyunca bioetika terminini dominant görüş olan biotibbi etikadan fərqləndirmək üçün dəyişdirməyə davam etdi. O, Nəhayət qlobal bioetika terminini seçdi [Whitehouse, 2003, s.26]. "Potterə görə iki tip bioetika mövcuddur, qısa-müddətli baxışa sahib olab tibbi bioetika və "uzunmüddətli baxış"a sahib olan ekoloji bioetika" [Hens, 2022, s.10]. Burada ekoloji bioetika insanlığı ekosistemi qorumağa, onu gələcək nəsillərə çatdırmağa və insan irqinin davamlılığını təmin etməyə təşviq edəcək bir perspektiv kimi ortaya çıxır. Digər tərəfdən, qısa-müddətli baxışı əks etdirən tibbi bioetika özündə individualistik və antroposentriklik ehtiva edir, çünki o etik dilemmaların mərkəzinə fərdi ehtiyacları və qısamüddətli faydanı qoyur. Nəticədə tibbi bioetika insan üçün mühüm əhəmiyyət daşıyan ekoloji problerə diqqət yetirmir, gələcək nəsillərin hüquqlarını müdafiə etməyə çalışmır. Bu səbəbdən də, tibbi bioetikaya ekoloji bioetika da əlavə edilərək hər iki sahəni əhatə edən global bioetika anlayışı istifadə edilməlidir. Burada belə bir sual da ortaya çıxır ki, Potter niyə qlobal bioetika anlayışını istifadə etdi? İlkin olaraq qeyd etdiyimiz kimi o, bu anlayışı istifadə etməklə digər bioetik konsepsiya ilə özününkü arasında fərq qoya bildi. İkinci olaraq, Peter J. Whitehouse qeyd edir ki, bu Potterin bioetika sahəsindəki intelluallığın genişliyindən xəbər verir. Potter hesab edirdi ki, bioetika tibbi və ekoloji etika ilə birgə dini və sosial etikanı da əhatə etməlidir" [Whitehouse, 2003, s.27]. " Bundan əlavə, onun biosferin sağlamlığına verdiyi diqqətə görə, qlobal anlayışı sağlamlıq etikası ilə bağlı beynəlxalq və planetar məsələlərə də diqqət yetirilməsini nəzərdə tutur" [Whitehouse, 2003, s.27]. "Bioetikayı qlobal bir perspektivlə əlaqələndirərkən, Potter əslində Pierre de Chardin'in ideyalarından istifadə edirdi". "Onun əsas ideyalarından biri, insanlığın qlobal bir icmaya inkişaf edəcəyinə dair fikri idi" [Ten Have & Gordijn, 2014, s.9]. "Teilhardın fikirincə, insanlıq birləşməkdə, daha müstəqil olmaqdadır və getdikcə daha çox əməkdaşlıq edərək nəhayət kosmopolit bir cəmiyyətə yaxınlaşacaqdır" [Ten Have, 2012, s.67] Potter kimi Teilhart da bəşəriyyətin inkişafı və gələcəyi kimi mövzular maraqlandırırdı. Potter bioetikaya qlobal anlayışını əlavə etməmişdən əvvəl 1971-ci ildə bioetika ilə bağlı olan ilk kitabı "Bioethics, bridge to the future" kitabında yazır ki, "Teilhard'ın görüşü, insanlığın gələcəyinin fərdi bioloji instinktlərimizi aşmaq və kollektiv etik şüur yaratmaq bacarığımızda yatdığını göstərir. Bu yanaşma, bioetikanın formalaşdırılmasında ciddi şəkildə nəzərə alınmalıdır". Buradan belə bir məqam da çıxır ki, Potter bioetika anlayışını ilk dəfə ortaya qoyarkən, onun içində qlobal bir baxış bucağı da mövcud idi.

Potterin bioetikası çox geniş və insanlıq üçün son dərəcə əhəmiyyətli mövzuları əhatə edir. O tibbi bioetikanın mövzuları ilə yanaşı ətraf mühitlə əlaqləli olan qlobal istiləşmə, növ müxtəlifliyinin qorunması, resurslardan, ərzaq və təmiz su ehtiyatlarından səmərəli istifadə, meşələrin qorunması, müharibələr, əhalinin sayının artması, kasıblıq, aclıq kimi mövzuları insan növünün sağqalması üçün önəmli sayır. Filosofa görə insan növünün gələcəyi üçün ekosistemlərin sağlamlığından ayrıca düşünülə bilməz. Belə ki, əhalinin çoxluğu, resursların səmərəsiz istifadəsi, ətraf mühitin problemləri yalnız təbiət üçün deyil

həm də bəşəriyyət üçün təhlükəlidir. Əgər biz ekoloji problemləri nəzərə almasaq insan irqinin davamlılığını qoruya bilməyəcəyik. Potter bioethics bridge to the future kitabında yazır ki, "səhiyyə sahəsindəki əsas irəliləyişlər, əhali qruplarına tətbiq oluna bilən biliklərə əsaslanır. Belə biliklər olduqca geniş şəkildə mövcuddur, lakin onlardan kifayət qədər istifadə olunmur. Əgər bu biliklər eyni zamanda doğum nəzarəti olmadan tətbiq edilsə, nəticələr fəlakətli ola bilər, çünki dünya əhalisi nəzarətsiz şəkildə artır" [Potter, 1971, s.149]. Həqiqətən də internetdəki bir çox mənbələrə baxsaq müşahidə edə bilərik ki, əhalinin çoxluğu ətraf mühit çirklənməsinə, meşələrin qırılmasına, resursların həddən çox istifadə edilməsinə, iqlim dəyişikliyi kimi ətraf mühit problemlərinə səbəb olur. Bundan əlavə Potterin bioetik konsepsiyasına görə su, hava və torpaq çirklənməsi həm insanın həm də ekosistemlərin sağlamlığı baxımından təhlükə daşıyır. Potter, iddia edir ki, "ekoloji bioetika həm hava və suyun çirklənməsinin qarşısının alınmasını, həm də bərpa olunan və olunmayan təbii ehtiyatların qorunmasını dəstəkləməlidir" [Potter, 1988, s.8-9]. Yəni, Potterin düşündüyü bioetika anlayışı bir çox ekoloji problemlərin səbəblərini və həll yollarını göstərməyə çalışır.

### *3.Niyə bioetiklər tibbi məsələlərə ətraf mühitlə bağlı məsələlərdən daha çox önəm verirlər?*

Məqalənin əvvəlki hissələrində qeyd olunduğu kimi bioetikanın tarixinə nəzər saldıqda müşahidə edirik ki, bu sahə meydana gəldikdən qısa müddət sonra onun iki fərqli disiplinə bölünmə prosesi gedir. Potter qlobal bioetika anlayışını istifadə etməklə ətraf mühit bioetikası və tibbi bioetikanı bir araya gətirməyin vacibliyini vurğulayır. "Çünki Potter bildirir ki, gərək tibbi və ekoloji məsələlər bir-birindən ayrılmasın" [Hens, 2022, 128]. Potterin bu fikri ilə də razılaşan və razılaşmayan bir qrup akademiklər vardır. Məsələn, bir sıra ekoloq alimlər qeyd edirlər ki, "bəziləri bioetikanın konseptual və institusional sərhədlərinin insan ətraf mühit münasibətləri tərəfindən qaldırılan etik problemləri əhatə etmək üçün genişləndirilməsinin tərəfdarı olsalar da, biz inanırıq ki, ekoloqlar və biomüxtəliflik menecerlərinin üzləşdiyi etik məsələlər kifayət qədər fərqli və mürəkkəbdir ki, öz intellektual və peşəkar forumunu tələb edir" [Minteer & Collins, 2005, s.332]. Bu cür ekoloqlar ətraf mühitin problemlərinin özü-özlüyündə mürəkkəb olduğunu söyləyərək bu problemlərin bioetikanın daxilində deyil, ətraf mühit etikası (enviromental ethics) və ya ekoloji etika (ecological ethics) sahəsində ayrılıqda nəzərdən keçirilməsinin vacibliyini vurğulayırlar. Burada ətraf mühit etikası (enviromental ethics) və bioetika arasındakı münasibətlərə diqqət yetirmək lazım gəlir. Əslində bu sahələr kifayət qədər yaxın sahələrdir. Son dövrlərdə bu iki sahənin arasındakı münasibətlərə dair bir çox yazılar yazılmışdır və onlarında baxışlarında müxtəliflik özünü göstərir. İlkin olaraq, onu qeyd etməliyik ki, Potterə görə ekoloji bioetikanın inkişafında Leopoldla birgə tanınmalı olan ekologiya, biologiya və insan növünün məqbul yaşaması problemi ilə maraqlanan başqa sahələrin mütəfəkkirləri olan Rachel Carson, Lewis Mumford, Eugene P. Odum, Carret Hardin, Paul Ehrlich, Barry Commoner, Lester R. Brown, Richard Falk və Paul Sheparddır [Potter, 1988, s.14]. Bundan əlavə Potter vurğulayır ki, Arne Naessin "Dərin ekologiya" manifesti onun bioetik ekologiyasının sinonimi sayıla bilər ancaq dərin ekologiyanın müəllifi modern tibbi texnologiyanın ortaya çıxardığı bir çox sualı cavabsız qoyur [Potter, 1988, s.14]. Buradan belə bir nəticə çıxara bilərik ki, ətraf mühit etikasına aid olan bir çox nəzəriyyələr ekoloji bioetikanın daha geniş şəkildə nəzərdə tutsaq qlobal bioetikanın inkişafına töhvə verə biləcək resurslardır. Yəni Potter ətraf mühit etikasını bioetikanın bir hissəsi kimi qəbul edir. Ancaq qlobal bioetika ətraf mühit etikasına əlavə olaraq tibbi etikanı da əhatə edərək bizlərə daha geniş perspektiv təklif edir. Yuxarıda da qeyd olunduğu kimi bəzi ekoloq alimlər ətraf mühitin problemlərinin çox mürəkkəb xarakterə malik olduğunu bildirərək onları araşdırılmasını bioetikadan fərqli bir sahədə olmasını tələb edirlər. Biz bioetika sahəsində

fəaliyyət göstərmədən və ya bioetika anlayışını istifadə etmədən ətraf mühitlə bağlı əxlaqi problemləri tədqiq edən filosofların adlarını çəkə bilərik. Aldo Leopold, Arne Naess, Paul Taylor, Holmes Rolston III, Alasdai Cochrane kimi filosoflar ekoloji etikayla bağlı müxtəlif nəzəriyyələr ortaya qoymuşlar. Bu filosofların baxışlarını ekoloji bioetiklərdən fərqləndirən cəhətlərdən ən əsası onların biosentrikliyə malik olmasındadır. Lakin ətraf mühit etikası ilə məşğul olan bir çox filosofun adını çəkmək olar ki, onların ekoloji təlimləri özündə antroposentrizmi ehtiva edir. Bununla belə, Potter iddia edir ki, qlobal bioetikanın qəbul etdiyi mövqe "biosentrizm deyil, antroposentrizm deyil, hər ikisinin birləşməsi" olmalıdır [Potter, 1996, s.181]. Əgər biz mütləq şəkildə bir fərq qoymaq istəsək belə deyə bilərik ki, Ətraf mühit etikası, yer kürəsində ekoloji tarazlığın qorunmasını təmin etmək məqsədilə bütün hiss edən varlıqların davamlı mövcudluğuna yönəlmiş bir sahədir. Bu tarazlıq, ekosistemi tənzimləyən təbii qanunauyğunluqların insanlar tərəfindən qiymətləndirilməsinə əsasən izah olunur. Digər tərəfdən, qlobal bioetikanın təsirləri ilkin məqsəd olaraq ekoloji sistemi hədəf almasa da, insanlığın bütün hiss edən varlıqlardan istifadəsini mənəvi və balanslaşdırılmış yanaşma çərçivəsində tənzimləməyi nəzərdə tutur [Sim, 2010, s.83]. Nəticə olaraq bildirməliyik ki,ekoloji etika ilə bioetikanın hər ikisi təbiətin mühafizə edilməsini mərkəzi mövqelərdən etdikləri üçün oxşardırlar. Lakin bioetika tibb sahəsində yeni texnologiyaların tətbiqi ilə bağlı ortaya çıxan problemləri də tədqiq etməyi öz vəzifəsi sayır, yəni daha geniş baxış bucağı təqdim edir. Ümumiyyətlə, bu barədə çox sayda məqalələr yazılmağına baxmayaraq hələ də fikir ayrılıqları mövcuddur. Bəzi tədqiqatçılar, bunlar arasında fərq qoymur və bu sahələri eyniləşdirməyə və ya yaxınlaşdırmağa çalışır. məsələn, Peter J. Whitehouse, Jessica Pierce, Henk ten Have kimi bioetikçilər ekoloji etikanı bioetikanın bir sahəsi kimi nəzərdən keçirir. Ancaq ekoloji etikanı bioetik çərçivəyə düşmədən tədqiq edən önəmli sayda etikçilər vardır. Onların adlarını yuxarıda qeyd etdik. Digər tərəfdən də bioetika dedikdə sadəcə tibbi bioetikanı nəzərdə tutan tədqiqatçılarda vardır (məsələn, Daniel Callahan, Andre Hellegers, Albert R. Jonsen, Warren Reich və başqaları). Bununla bağlı, Warren Reich Potterə istinadən yazır ki, bioetikanın hüdudlarını müəyyən etmək məsələsində fərqli yanaşmalar mövcuddur. Ancaq mənim mövqeyimə görə bioetika geniş və qlobal mənada istifadə edilməlidir. Daha sonra isə bu çərçivədə konkret sahələrə aydınlıq gətimək üçün tibbi bioetika, ekoloji bioetika, kliniki bioetika kimi terminlər istifadə edilməlidir [Reich, 1995, s.29-30]. Ekoloji problemlərlə tibbi problemləri birgə şəkildə tədqiq edən, onlar arasında qarşılıqlı əlaqələrin önəmini vurğulayan bioetiklər olsada, dövrümüzdə həm ölkəmizdə həm də xarici akademik mühitlərdə bioetika dedikdə daha çox tibbi problemlərə etik münasibətlərin tədqiqi sahəsi kimi anlaşılır. "Akademik mühitlərdə –və yalnız onlarda deyil– tez-tez bioetikaya tibb etikası ilə eynilik gətirilməsi tendensiyası mövcuddur, bununla da Potterin "qlobal bioetika" termini ilə ifadə etdiyi ilkin ideya unudulur" [Valera, 2017, s.414]. Ancaq fikrimizcə, müasir dövrdə Potterin qlobal bioetika anlayışı daha çox qabardırmalıdır. Çünki müasir zamanda insan sağlamlığı ilə ətraf mühit problemlərinin əlaqəli olması ilə bağlı kifayət qədər faktlar mövcuddur. "Hava, su və torpaq çirkliliyi, həmçinin zəhərli kimyəvi maddələrə məruz qalma, sağlamlığımıza əhəmiyyətli təhlükələr yaradır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) təxmin edir ki, qlobal xəstəlik və ölüm yükünün əhəmiyyətli bir hissəsi ətraf mühit amillərinə bağlıdır, bu da insan sağlamlığı ilə ətraf mühit arasındakı birbaşa əlaqləni vurğulayır" [WellWo]. "Sağlamlıq problemlərinin təxminən 25 faizi artıq ətraf mühitin mənşəlidir" [Richie, 2014, s.750]. Bəs ətraf mühit və insan sağlamlığının birbaşa əlaqəsi olduğu halda niyə bioetiklər daha çox evtanaziya, orqan transplantasiyası, genetik mühəndislik, həkim-xəstə münasibətləri kimi tibbi bioetik məsələlərə daha çox diqqət yetirirlər? Albert R.Jonsen yazır ki, "bioetika "böyük partlayış"la başlamadı" (burada tibbi bioetika nəzərdə tutulur) [Jonsen, 1998, s.3]. Yəni onun bir anlayış kimi ortaya çıxmasının şərtləndirən bir sıra tarixi hadisələr baş verdi. Bir sıra tədqiqatçılara görə "bioetikanın fundamenti əxlaqi-etik və fəlsəfi bir elm kimi məhz

1946-cı ildə Nürnberq Məhkəməsi prosesində qoyulmuşdur" [Mustafayeva, Məmmədov & Əhmədov, 2013, s.78]. Bundan əlavə 1948 və 1966-cı illərdə qəbul olunmuş Geneva və Helsinki deklerasiyaları tibbi bioetikanın tarixində önəmli hadisələrdən sayılırlar. Mən tibbi bioetikanın tarixi barədə çox yazmaq istəmirəm, çünki bu barədə kifayət qədər məlumat vardır. Sadəcə mənim bunu yazmaqda məqsədim odur ki, tibbi bioetika uzun bir tarixə malik olmuşdur və bir ənənənin davamı olmuşdur. Ona görə də ətraf mühit bioetikasına nəzərən daha çox diqqətə alınmışdır. Bunu bir çox tədqiqatçılarda bildirirlər ki, Georgetown universitetinin bioetik yanaşması tarixi dini-əxlaqi sistemlərə söykənmişdi. Bu səbəbdən də Potterin yeni və fərqli baxış bucağına nisbətən daha çox dəyər gördü. "Nəticə etibarilə, Potter-in bioetika ideyası, insanlığın dəyərli və davamlı qlobal sağ qalmasını təmin etmək məqsədilə mənəvi seçimlərə yol göstərəcək yeni bir etikanın formalaşdırılmasını irəli sürürdü. Buna qarşı olaraq, Georgetown yanaşması isə K. Danner Clouser-in "eyni köhnə etika" adlandırdığı – yəni adi etik prinsiplərin sadəcə bioloji sahəyə tətbiqi – yanaşmasını müdafiə edirdi [Reich, 1995, s.21]. Bundan əlavə amerika bioetiki David Resnik tibbi bioetikanın daha çox diqqət çəkməsinin başqa bir sıra səbəblərini də göstərir. İlk olaraq o, qeyd edir ki, "bioetika ənənəvi olaraq xəstələr, tibb mütəxəssisləri və səhiyyə təşkilatları arasında qarşılıqlı əlaqələrlə bağlı dilemmlər və qərarlarla məşğul olub. Abort, evtanaziya, gizlilik, reproduktiv sağlamlıq və səhiyyə xidmətlərinə giriş kimi mövzular bioetika araşdırmaları, təhsili və məsləhət xidmətlərinin əsas mövzularıdır. Qlobal istiləşmə ilə bağlı narahatlıqlar, tibb mütəxəssisləri və xəstələr arasındakı tipik qarşılıqlı əlaqələrdə və ya institut siyasətinin hazırlanmasında adətən gündəmə gəlmir" [Resnik, 2009, s.1].İkinci səbəb olaraq o göstərir ki, "bioetiklərin çoxları ekoloji problelmlərə marağı olmayan səhiyyə təşkiltlarında işlədikləri üçün onlar maaşı ekoloji məsələləri tədqiq etmək üçün deyil tibbi problemləri həll etməyə görə alırlar" [Resnik, 2009, s.1]. Daha ətraflı izah etməyə çalışsaq, maliyyələşmə hər hansı bir sahənin inkişafı və instituionallaşması üçün önəmli amildir. Belə ki, dövlət agentlikləri, səhiyyə təşkilatları və özəl fondlar ətraf mühit bioetikası ilə müqayisədə biotibbi bioetika sahəsinə daha çox sərmayə qoyurdular və nəticədə bu sahənin yaxşı maliyyələşməsi buraya olan marağın artmasına səbəb olurdu. Bu barədə amerikan bioetikçi və tədqiqatçı olan Warren Reich yazır ki, "Potterin öz görüşlərini təşviqetmək üçün xüsusi institusional, akademik və maliyyə vasitələri yox idi. Karyerasının böyük bir hissəsində o, səlahiyyət müddəti əldə etmək üçün (tenure qazanmaq) üçün biokimya sahəsində araşdırmalarla məşğul olmağa məcbur idi və yalnız yaşlı tədqiqatçı statusu qazandıqdan və təqaüdə çıxdıqdan sonra bioetika sahəsində yazmağa daha çox vaxt ayıra bildi" [Reich, 1995, s.23]. "Üçüncü olaraq, ətraf mühit məsələləri, hər gün xəstəxana palatalarında baş verən həyat və ölüm dramlarının emosional təsirinə sahib deyil. Buna görə də, onlar media, ictimaiyyət və alimlər tərəfindən daha az diqqət çəkir. Hər kəs sevdiyinə həyat dəstəyini kəsməklə bağlı etik çətinlikləri başa düşə və qiymətləndirə bilir, amma çox az insan qlobal istiləşmənin əhəmiyyətini qəbul edə bilir. İqlim dəyişikliyi məsələləri tez-tez qeyri-müəyyən və başa düşülməsi çətin olur" [Resnik, 2009, s.1]. Biotibbi bioetika insanların həyatına birbaşa təsir edən, onların hüquqları və sağlamlığı ilə bağlı qərarların qəbul edilməsində önəmli rol oynadığına görə bu sahənin ictimaiyyətə təsiri də güclüdür. Digər tərəfdən ətraf mühitlə bağlı etik dilemmalar çox vaxt insanlar uzunmüddətli nəticələr barəsində düşünməyi tələb edir. Bu da insanların həyat, sağlamlıq və ölüm kimi problemlərlə müqayisədə insanlara abstrakt görünür. Lakin XX əsrin ekoloji böhranları, iqlim dəyişikliyi, texnkologiyanın yaratdığı etik risklər və qlobal miqyasda ortaya çıxan bioetik çağırışlar bioetiklərin ətraf mühitin və insanlığın gələcəyi ilə bağlı olan məsələlərə də diqqət yetirsinlər. Ətraf mühit bioetikasının bioetikanın daxilində alt sahə olmasını tələb edən amerikalı bioetik Jessica Pierce bildirir ki, "bütün bioetiklər gələcək on il ərzində iqlim dəyişikliyi, resursların istehlakı və enerji istifadəsinin formaları səhiyyə sistemlərini necə ciddi şəkildə çətin vəziyyətə salacağını anlamalıdır" [Pierce, 2009].

## *4.Nəticə*

Bioetikanın formalaşma tarixində yaranmış ikianlamlılıq - bir tərəfdə Van Ranslaer Potterin holistik və ekoloji əsaslı bioetikası, digər tərəfdə Kennedi universiteti çevrəsində inkişaf etmiş tibbi yönlü bioetika- bu sahənin epistemoloji və praktiki istiqamətini müəyyən edən əsas dönüş nöqtələrindən biri olmuşdur. Potter öz bioetika anlayışını dünya fəlsəfi fikrinə təqdim edərkən o, təbiət və yaşayan bütün canlı formalarına holistik bir yanaşmanı təbliğ etmiş,insanlığın öz davamlılığını təmin etməsi üçün ətraf mühitlə münasibətlərində diqqətli olmağa çağırmışdır. Potterin təklif etdiyi bioetika anlayışı Kennedi institunun bioetik modelindən fərqli olaraq klinik mühitlə məhdulaşmırdı. Onun "yaşamaq bilgisi" (science of survival) adlandırdığı bu yanaşma, bioloji biliklərlə etik dəyərlərin sintezini vurğulayırdı. Bu səbəbdən də o, bioetikanın əsas məqsədinin təkcə tibbi qərarların qəbul edilib yoxlanılmasında deyil, həm də insan irqinin biosfer üzərindəki təsirlərinin araşdırılmasında görürdü. Lakin, təəsüf ki, müəyyən səbəblərdən bioetikanın akademik və instituonal inkişafında tibbi bioetika üstünlük qazanmış və Potterin qlobal bioetikası ikinci planda qalmışdır. Lakin XXI əsrdə ətraf mühitin problemləri son dərəcə aktual olmaqla bərabər onlar qlobal xarakter daşıyır. Hətta insan sağlamlığını ətraf mühitdən asılı olmadan düşünmək qeyri-mümkündür. Modern dünyada havanın çirklənməsi, meşələrin qırılması, resurslardan qeyri-səmərəli istifadə, əhalini sayının həddən artıq çoxluğu kimi problemlər dünyamızın və insanlığın gələcəyini təhdid altında qoyur. Məhz bu səbəbdən, Potterin irsinin yenidən dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Onun holistik və qlobal bioetikası bəşəriyyətin gələcəyi ilə birgə bütün canlıların ümumilikdə planetin davamlı gələcəyinə yönəlmiş etik düşüncəyə əsaslanır. Ona görə də, Potterin bioetika anlayışı bir alternativ kimi deyil, gələcəyə yönverən zəruri bir model kimi qəbul edilməlidir.

## *5.REFERENCES*


1. Potter, V. R. (1988). *Global bioethics: Building on the Leopold legacy*. Michigan State University Press. (in English)
2. Potter, V. R. (1971). *Bioethics: Bridge to the future*. Englewood Cliffs, NJ: Prentice-Hall. (in English)
3. Potter, V. R. (1996). Real bioethics: Biocentric or anthropocentric. *Ethics and the Environment, 1*(2), 177–183. (in English)
4. Richie, C. (2014). History of medicine: A brief history of environmental bioethics. *American Medical Association Journal of Ethics, 16*(9), 749–752. https://doi.org/10.1001/virtualmentor.2014.16.9.mhst2-1409 (in English)
5. Hens, K. (2022). *Chance encounters: A bioethics for a damaged planet*. Cambridge, UK: Open Book Publishers. https://doi.org/10.11647/OBP.0320 (in English)
6. Minteer, B. A., & Collins, J. P. (2005). Why we need an "ecological ethics." *Frontiers in Ecology and the Environment, 3*(6), 332–337. https://doi.org/10.1890/1540-9295(2005)003[0332:WWNAEE]2.0.CO;2 https://doi.org/10.2307/3868567 (in English)
7. Valera, L. (2017). The bioethics of Potter: A search for wisdom in the origins of bioethics and environmental ethics. *Medicina y Ética, 28*(2), 413–430. (in English)
8. Reich, W. T. (1995). The word "bioethics": The struggle over its earliest meanings. *Kennedy Institute of Ethics Journal, 5*(1), 19–34. https://doi.org/10.1353/ken.0.0143 PMid:11645296 (in English)
9. Brescia, T. (2015). The rediscovery of Potterian bioethics. *Global Bioethics, 26*(3–4), 190–197. https://doi.org/10.1080/11287462.2015.1034472 (in English)
10. Whitehouse, P. J. (2003). The rebirth of bioethics: Extending the original formulations of Van Rensselaer Potter. *The American Journal of Bioethics, 3*(4), W26–W31. https://doi.org/10.1162/152651603322614751 PMid:14744319 (in English)

11. Lecaros, J. A. (2013). Ecological ethics: The road of responsibility towards global bioethics. *Ramon Llull Journal of Applied Ethics, 4*(4), 201–215. (in English)
12. Leopold, A. (1970). *A sand county almanac*. Oxford University Press, 288 p. (in English)
13. Mustafayeva, A., Mammadov, V., & Ahmadov, I. (2013). Development and prospects of the science of bioethics in Azerbaijan. *Dirchelish*, (180), 78–91. (in Azerbaijani)
14. Ten Have, H. A. M. J., & Gordijn, B. (2014). Global bioethics. In ten Have, H., Gordijn, B. (Eds.), *Handbook of global bioethics*. Springer, Dordrecht. https://doi.org/10.1007/978-94-007-2512-6_63 (in English)
15. Pessini, L. (2018). *Global bioethics at a time of uncertainty, perplexity and hope*. Camillian Order. https://www.camilliani.org/wp-content/uploads/2018/12/Global-Bioethics-EN.pdf https://doi.org/10.22560/reanec.v42i155.101 (in English)
16. Ten Have, H. A. (2012). Potter's notion of bioethics. *Kennedy Institute of Ethics Journal*, 22(1), 59–82. https://doi.org/10.1353/ken.2012.0003 PMid:22787958 (in English)
17. Sass, H.-M. (2009). Asian and European roots of bioethics: Fritz Jahr’s 1927 definition and vision of bioethics. *Asian Bioethics Review*, 1(3), 185–197. (in English)
18. Jonsen, A. R. (1998). *The birth of bioethics*. Oxford University Press. https://doi.org/10.1093/oso/9780195103250.001.0001 (in English)
19. Pierce, J. (2009, November 16). Environmental bioethics – A manifesto. *Resilience*. https://www.resilience.org/stories/2009-11-16/environmental-bioethics-manifesto/ (in English)
20. Resnik, D. B. (2009). Bioethics and global climate change. *Bioethics Forum*, 2009 (Spring), Article 1. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC2688386/ (in English)
21. Gordon, J.-S. (2012, November). Bioethics. In J. Fieser & B. Dowden (Eds.), *Internet Encyclopedia of Philosophy*. https://iep.utm.edu/bioethics/ (in English)
22. Sim, E. U.-H. (2010). Environmental ethics and bioethics: Anthropocentrism, converging ideology, and socio-political disposition. In J. Lee (Ed.), *Sustainability and quality of life*. RIA University Press, 77–90. (in English)
23. Jecker, N. S., Jonsen, A. R., & Pearlman, R. A. (2012). *Bioethics: An introduction to the history, methods, and practice* (3rd ed.). Jones & Bartlett Learning. (in English)
24. Kalokairinou, E. M. (2016). Fritz Jahr’s bioethical imperative: Its origin, point, and influence. *JAHR – European Journal of Bioethics*, 7(2), 149–156. (in English)
25. WellWo. (n.d.). *The relationship between human health and the environment.* https://wellwo.es/en/the-relationship-between-human-health-and-the-environment/ (in English)
26. Ralston, S. J. (2015). Holism. In M. T. Gibbons, D. Coole, W. E. Connolly, & E. Ellis (Eds.), *Blackwell encyclopedia of political thought*, 1–6. (in English)

## *ƏDƏBİYYAT*

1. Potter, V. R. (1988). *Global bioethics: Building on the Leopold legacy*. Michigan State University Press.
2. Potter, V. R. (1971). *Bioethics: Bridge to the future*. Englewood Cliffs, NJ: Prentice-Hall.
3. Potter, V. R. (1996). Real bioethics: Biocentric or anthropocentric. *Ethics and the Environment*, *1*(2), 177–183.
4. Richie, C. (2014). History of medicine: A brief history of environmental bioethics. *American Medical Association Journal of Ethics*, *16*(9), 749–752. https://doi.org/10.1001/virtualmentor.2014.16.9.mhst2-1409
5. Hens, K. (2022). *Chance encounters: A bioethics for a damaged planet*. Cambridge, UK: Open Book Publishers. https://doi.org/10.11647/OBP.0320

6. Minteer, B. A., & Collins, J. P. (2005). Why we need an "ecological ethics." *Frontiers in Ecology and the Environment*, *3*(6), 332–337. https://doi.org/10.1890/1540-9295(2005)003[0332:WWNAEE]2.0.CO;2 https://doi.org/10.2307/3868567
7. Valera, L. (2017). The bioethics of Potter: A search for wisdom in the origins of bioethics and environmental ethics. *Medicina y Ética, 28*(2), 413–430.
8. Reich, W. T. (1995). The word "bioethics": The struggle over its earliest meanings. *Kennedy Institute of Ethics Journal*, *5*(1), 19–34. https://doi.org/10.1353/ken.0.0143 PMid:11645296
9. Brescia, T. (2015). The rediscovery of Potterian bioethics. *Global Bioethics, 26*(3–4), 190–197. https://doi.org/10.1080/11287462.2015.1034472
10. Whitehouse, P. J. (2003). The rebirth of bioethics: Extending the original formulations of Van Rensselaer Potter. *The American Journal of Bioethics, 3*(4), W26–W31. https://doi.org/10.1162/152651603322614751 PMid:14744319
11. Lecaros, J. A. (2013). Ecological ethics: the road of responsibility towards global bioethics. *Ramon Llull Journal of Applied Ethics, 4*(4), 201–215.
12. Leopold, A. (1970). *A sand county almanac*. Oxford University Press, 288 p.
13. Mustafayeva, A., Məmmədov, V., & Əhmədov, İ. (2013). Azərbaycanda bioetika elminin inkişafı və perspektivləri. *Dirçəliş*, (180), 78–91.
14. Ten Have, H.A.M.J., Gordijn, B. (2014). Global Bioethics. In: ten Have, H., Gordijn, B. (eds) Handbook of Global Bioethics. Springer, Dordrecht. https://doi.org/10.1007/978-94-007-2512-6_63
15. Pessini, L. (2018). *Global bioethics at a time of uncertainty, perplexity and hope*. Camillian Order. https://www.camilliani.org/wp-content/uploads/2018/12/Global-Bioethics-EN.pdf https://doi.org/10.22560/reanec.v42i155.101
16. Ten Have, H. A. (2012). Potter's notion of bioethics. *Kennedy Institute of Ethics Journal*, *22*(1), 59-82. https://doi.org/10.1353/ken.2012.0003 PMid:22787958
17. Sass, H.-M. (2009). Asian and European roots of bioethics: Fritz Jahr's 1927 definition and vision of bioethics. *Asian Bioethics Review, 1*(3), 185–197.
18. Jonsen, A. R. (1998). *The birth of bioethics*. Oxford University Press. https://doi.org/10.1093/oso/9780195103250.001.0001
19. Pierce, J. (2009, November 16). Environmental bioethics – A manifesto. *Resilience*. https://www.resilience.org/stories/2009-11-16/environmental-bioethics-manifesto/
20. Resnik, D. B. (2009). Bioethics and global climate change. *Bioethics Forum, 2009* (Spring), Article 1. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC2688386/
21. Gordon, J.-S. (2012, November). Bioethics. In J. Fieser & B. Dowden (Eds.), *Internet Encyclopedia of Philosophy*. https://iep.utm.edu/bioethics/
22. Sim, E. U.-H. (2010). Environmental ethics and bioethics: Anthropocentrism, converging ideology, and socio-political disposition. In J. Lee (Ed.), *Sustainability and quality of life*. RIA University Press, 77–90.
23. Jecker, N. S., Jonsen, A. R., & Pearlman, R. A. (2012). *Bioethics: An introduction to the history, methods, and practice* (3rd ed.). Jones & Bartlett Learning.
24. Kalokairinou, E. M. (2016). Fritz Jahr's bioethical imperative: Its origin, point, and influence. *JAHR – European Journal of Bioethics, 7*(2), 149–156.
25. WellWo. (n.d.). *The relationship between human health and the environment*. https://wellwo.es/en/the-relationship-between-human-health-and-the-environment/
26. Ralston, S. J. (2015). Holism. In M. T. Gibbons, D. Coole, W. E. Connolly, & E. Ellis (Eds.), *Blackwell encyclopedia of political thought*, 1–6.